*Xətai rayonu*

# Bakımıza gözəllik gətirən məkan





Tarixi qədim Bakımız. Adına hələ miladdan qabaq yazılmış əsərlərdə rast gəldiyimiz, tarixin qovğalarından, sınaqlarından çıxan baş kəndimiz. Zaman-zaman bu diyara kim gəlibsə, gözəlliyinə heyran olub. Tanrının verdiyi təbii sərvətləri dildən-dilə düşüb. Bir vaxt quberniya mərkəzinə çevriləndə (1859), yalnız Qala divarlarının içərisində yerləşən, əyri-üyrü, darısqal küçələrdən, bir mərtəbəli köhnə evlərdən ibarət olan şəhərin bu günü, indi gördüklərimiz möcüzədən başqa bir şey deyil. Şirvanşahlar sarayı, Qoşa qala qapısı, yaxud Şamaxı darvazaları, Qız qalası... kimi qədim fikirlərlə yarışa girən müasir memarlıq abidələri... Gözümüzün önündə gündən-günə gözəlləşən şəhərimizin göz oxşayan, könül açan məkanlarının sırasına daha biri də əlavə olundu: Yapon bağı...



Bakının iri rayonlarından olan Xətai rayonundakı Heydər Əliyev parkında yenə də izdiham yaşanırdı. Rayon rəhbərliyi, ictimaiyyətin nümayəndələri, qonaqlar parkın ərazisində salınmış Yapon bağının açılışına toplaşmışdılar. Tədbir iştirakçıları ilk öncə, ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstələri qoyub xatirəsini yad etdilər. Sonra açılış mərasimi başlandı.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov tədbir iştirakçılarını salamlayaraq dedi: "2014-cü il iyun ayının 1-dən 11-nə kimi Azərbaycanın bir sıra şəhər və rayon icra hakimiyyətləri başçılarından ibarət nümayəndə heyəti Yaponiyada işgüzar səfərdə olmuşdur. Səfərin məqsədi Yaponiyanın yerli idarəetmə sistemi, şəhər planlaşdırılması, şəhər təsərrüfatının idarə edilməsi ilə yaxından tanış olmaq, mövcud təcrübədən faydalanmaq və ikitərəfli regionlararası əməkdaşlığı gücləndirməkdən ibarətdir. Səfər çərçivəsində keçirilən bir sıra tədbirlərlə yanaşı Yaponiyanın Kitakyuşu şəhəri ilə Xətai rayonu arasında dostluq və tərəfdaşlıq haqqında niyyət protokolu imzalanmışdır. Eyni zamanda Yapon bağları və parklarının salınması və dizaynı üzrə ixtisaslaşmış "KOSUGI ZOHEN" şirkətinin nümayəndələri ilə də görüş keçirilmişdir.

Yaponiya ilə ikitərəfli regionlararası əməkdaşlığın qurulması naminə Yapon bağları və parklarının salınması və dizaynı üzrə ixtisaslaşmış bu şirkətin prezidenti Saki Kosuginin başçılıq etdiyi nümayəndə heyəti 2014-cü ilin sentyabr və dekabr aylarında ölkəmizdə, eləcə də Xətai rayonunda səfərdə olmuş, Xətai rayonu "Heydər parkı"nda Yapon bağının salınması qərara alınmışdı.

Bağın tikintisinə 2015-ci ilin fevral ayında başlanmış və iyul ayında başa çatmışdır.

Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan özünün inkişaf mərhələsini yaşayır, onun beynəlxalq nüfuzu artır. İndi Azərbaycan dünyada ən etibarlı tərəfdaş kimi tanınır. Yaponiya da Azərbaycana gözəl tərəfdaşdır. İnanıram ki, bu gün açılan, sakinlərin ixtiyarına verilən Yapon bağı dövlətlərimiz arasında hərtərəfli əməkdaşlığın güclənməsinə kömək edəcəkdir".



Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Tsuquo Takahaşiyə Bakı sakinlərinin Yapon mədəniyyəti ilə tanış olmasına xidmət edən bu bağın açılmasına yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Xətai rayon icra hakimiyyətinin başçısı Razim Məmmədova minnətdarlığını bildirərək dedi ki, bu işdə ən böyük zəhmət KOSUGI şirkətinin üzərinə düşür. Bu şirkət dünyanın bir çox ölkələrində Yapon bağlarının salınması ilə məşğuldur və onun prezidentinin əməyi Yapon dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Bu, onun Azərbaycanda ikinci işidir. 2009-cu ildə İsmayıllı rayonunda açılan Yapon bağından sonra indi Bakıda daha bir bağ salınıb insanların istifadəsinə verilib. Bir səfir kimi bundan qürur duyur və əmin olmaq istəyirəm ki, Yapon bağı iki dövlət arasında bundan sonrakı əlaqələrin hərtərəfli inkişafına öz təsirini göstərəcəkdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Tağı Tağıyev son illərdə ölkəmizdə gedən quruculuq işlərindən danışaraq dedi ki, bu illərdə 52-dən artıq mədəniyyət və istirahət parkı salınmış, 100-dən çoxu yenidən qurulmuş, abadlaşdırılmışdır. Xətai rayonundakı Heydər Əliyev parkı öz möhtəşəmliyi ilə seçilir. Düşünürəm ki, bu gün açılan bağ əraziyə, rayona, eyni zamanda Bakının özünə də gözəllik gətirəcəkdir.

Yaponiya dövləti Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ildə qurulub, Yaponiya Azərbaycanın çətin günlərində ona dəstək olub. 1998-ci ildə ulu öndər Heydər Əliyev, 2006-cı ildə Prezident İlham Əliyev bu ölkədə rəsmi səfərdə olublar. Bu gün iki ölkə arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Bu gün açılışına toplaşdığımız Yapon bağı da dediklərimə gözəl nümunədir.

Sonra KOSUGI ZOHEN şirkətinin prezidenti Saki Kosugi söz alaraq bağın özəlliklərindən danışdı: "Salınmış parkda Yaponiyanın qədim mədəniyyətini, folklorunu və milli ornamentlərini əks etdirən atributlar, Tori qapısı quraşdırılmış, İtaliyanın Pistoia şəhərindən xüsusi olaraq sakura, aser, pinus və digər yapon mənşəli ağac və gül kolları gətirilmişdir. Burada Azərbaycanın müxtəlif guşələrindən, xüsusən də Xızı dağlarından gətirilmiş təbii qaya və çay daşlarından istifadə olunaraq "Şəlalə" kompleksi qurulmuşdur. İnanıram ki, bura hər kəsin xoşuna gələcəkdir".

Sonda ənənəvi olaraq bağın ərazisində ağaclar əkildi, tərəflər bir-birinə hədiyyələr təqdim etdilər.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**
**Foto S.MƏMMƏDİNDİR.**